# 105 YAŞLI ELM VƏ TƏHSİL MƏBƏDİ






**1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentində gərgin müzakirələrdən sonra ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli addım atıldı - elmin və təhsilin inkişafına mühüm töhfə verəcək ilk ali təhsil müəssisəsinin açılması qərara alındı. Həmin gün qəbul edilən qanunla Bakı Dövlət Universiteti yaradıldı.**

Universitetin idarə olunması və tədris-elmi fəaliyyətinin təşkili ilə bağlı tələbləri müəyyən edən nizamnamə isə sentyabrın 29-da, parlamentin 79-cu iclasında rəsmi olaraq təsdiq edildi. Universitetin ilk idarəçilik strukturu həmin il noyabrın 10-da keçirilən iclasda müəyyənləşdirildi və professor-müəllim heyətinin təyinatı təsdiqləndi. Bu tarixi qərarın ardınca, noyabrın 15-i şənbə günü universitetin ilk dərs günü elan olundu. Universitet ilk tədris ilinə 2 fakültə (tarix-filologiya, tibb fakültələri) və 1094 tələbə ilə başladı. Bakı Dövlət Universitetinin ilk rektoru Kazan Universitetindən dəvət olunmuş görkəmli cərrah və alim, professor Vasili İvanoviç Razumovski təyin edildi.

BDU-nun inkişafında yeni mərhələ 1969-cu ildən etibarən başladı. Ümummilli lider Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə gəlməsi universitetin elm mərkəzinə çevrilməsində dönüş nöqtəsi oldu. Ulu öndər Heydər Əliyevin bu ali təhsil ocağına göstərdiyi xüsusi diqqət və qayğı universitetin nüfuzunu daha da artırdı. BDU-nun 50 illik yubiley mərasimində Heydər Əliyev böyük cəsarət və qətiyyətlə ana dilimizdə çıxış edərək Azərbaycan dilinə verdiyi önəmi bir daha nümayiş etdirdi. Xalqımız bu tarixi hadisəni indi də dərin ehtiram və böyük minnətdarlıqla xatırlayır. Ümummilli lider həmin əlamətdar hadisəni tez-tez xatırlayırdı: "Xatirimdədir, Universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu - nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir… Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər". Ulu öndərin uzaqgörən siyasəti universitetin müasir dövrün tələblərinə uyğun inkişaf etməsini və təhsil səviyyəsinin yüksəlməsini təmin etdi. Bu dəstək BDU-nun milli elmin formalaşmasında əvəzsiz rol oynamasına şərait yaratdı. Bu gün universitetdə bakalavriat pilləsində 22 minə yaxın tələbə təhsil alır. Tələbələrin 12 mindən çoxu humanitar, 9963 nəfəri isə texniki sahə üzrə ixtisaslaşır. Bakı Dövlət Universiteti müasir təhsil tələblərinə cavab verən yüksək səviyyəli ali təhsil ocağıdır. Universitetdə tələbələrə müxtəlif ixtisaslar üzrə elmi biliklər aşılanır. Tədris proqramları beynəlxalq standartlara uyğun olaraq mütəmadi şəkildə yenilənir, elmi-tədqiqat işlərinə geniş yer verilir və bu sahədə müasir texnologiyalar tətbiq edilir. Təcrübəli professor-müəllim heyətinin iştirakı ilə aparılan dərslər tələbələrə həm nəzəri, həm də praktiki biliklər qazandırır. Beynəlxalq əməkdaşlıq genişləndirilir, xarici ölkələrin tanınmış ali təhsil ocaqları ilə birgə layihələr və mübadilə proqramları həyata keçirilir. Eyni zamanda tələbələrə beynəlxalq miqyasda tanınan sertifikatlar əldə etmək imkanı yaradılır və onlar qlobal əmək bazarında rəqabətədavamlı kadrlar kimi yetişirlər. Beynəlxalq reytinqlərdə BDU-nun mövqeyi güclənir və dünya miqyasında nüfuzu artır, həm tədris, həm də elmi-tədqiqat sahələrində yeni-yeni uğurlar əldə olunur. BDU-nun Azərbaycan təhsilindəki önəmli rolu və dünya səviyyəsində elm mərkəzinə çevrilməsi ölkəmiz üçün strateji əhəmiyyət daşıyır.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2024.- 15 noyabr (№ 251).- S.15.